# Ermənistan hər bir təxribatının layiqli cavabını alacaq

**"Ermənistan tərəfindən atəşkəsin pozulması elə Ermənistan Müdafiə Nazirliyinin özü tərəfindən də dolayı yolla təsdiqlənir. Guya əmrlərə zidd olaraq atəş açan hərbçilərin bu proseslərdə iştirakı sübut olunarsa, onlar mütləq cəzalandırılacaqlar. Bununla ermənilər təxribata yol verdiklərini özləri də sübut edirlər. Deməli, bəhanələr uydurmağa ehtiyac yoxdur, sərhədçimizin snayperlə vurulması Ermənistanın növbəti məqsədyönlü təxribatıdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, nəzərə almaq lazımdır ki, təxribatlar Zəngilan və Tovuz istiqamətlərində törədilib: "Bu isə birbaşa dövlət sərhədinin pozulması deməkdir. Görünür, ermənilər arxayınlaşıblar. Onları bu vəziyyətə gətirən səbəblər isə məlumdur. Ermənistandakı iqtidar və müxalif qüvvələrin hər biri nəyin bahasına olursa-olsun, Rusiyanın regionda rolunun azalmasını istəyirlər. Onlar bu mövzuda havadarları, xüsusilə də Qərblə həmfikirdirlər".

Deputatın sözlərinə görə, törədilmiş bu təxribat birmənalı olaraq məqsədli həyata keçirilib. Burada əsas niyyət Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını gecikdirməkdir. Azərbaycanın şanlı zəfərlərindən sonra ermənilərin xam xəyallardan əl çəkə bilməmələri, doğrudan da, absurddur. Son vaxtlar Paşinyanın verdiyi gülünc açıqlamaların və Ermənistan Xarici İşlər Nazirliyinin absurd bəyanatlarının hər birinin arxasında sülhün bərqərar olmasını əngəlləmək kimi çirkin niyyət dayanır. Qərblə Rusiyanın əsas dərdi isə vasitəçilik məsələsi ilə regionda hökümranlıqla bağlıdır.

"Azərbaycanın yürütdüyü müstəqil daxili və xarici siyasət bu gün Ermənistanı və havadarlarını ciddi şəkildə narahat edir. Ona görə sərhəddə xaincə planlar qurur, Azərbaycan əsgərini hədəfə alırlar. Lakin unudurlar ki, bizim "dəmir yumruq" gündən-günə möhkəmlənir, onların ölkəmizi hədəf alan istənilən təxribat cəhdinin qarşısı qətiyyətlə alınır", - deyə müsahibimiz qeyd edib.

Arzu Nağıyev vurğulayıb ki, indi də və sonra da suverenliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhdidin qarşısı alınacaq, düşmənə hər zaman layiqli cavab veriləcək: "Ermənistan və havadarları qulaqlarında sırğa etməlidirlər ki, suverenliyimiz və ərazi bütövlüyümüz bizim üçün çox mühüm məsələdir. Azərbaycanın heç bir təxribatı cavabsız qoymadığını əvvəlki "Qisas", Sarıbaba və digər əməliyyatları xatırlayıb özləri üçün dərs çıxarmalıdırlar. Prezident İlham Əliyevin dediyi kimi, bir nəfər də olsun Azərbaycan əsgərinin qanı yerdə qalmayacaq. Hər bir təxribat şiddətli şəkildə cavablandırılacaq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 fevral, № 33.- S.7.